© *"Metafizika" Journal* *p-ISSN 2616-6879*
*Vol 6, issue 1, serial 21, 2023. pp.209-221* *e-ISSN 2617-751X*

**UOT:** 7203.01
**KBT:** 63.3(2)64-
**MJ №** 164

# Heydər Əliyev və milli dövlətçiliyin Azərbaycan modeli

**Nərminə Qasımova***

**Abstrakt.** Məqalə milli dövlət quruculuğu prosesində Ulu öndərin siyasi fəaliyyətinə həsr edilmişdir. Müasir tariximizdə müstəqilliyimizin rəmzi olaraq mühüm yer tutan Heydər Əliyev zəngin və çoxşaxəli irsi ilə hər bir azərbaycanlı üçün örnəkdir. Milli şüurun təkamülü Heydər Əliyevin hakimiyyətə gəlişi ilə sürətləndi, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter aldı. Uğurlu və güclü dövlət quruculuğu konsepti Azərbaycanın müstəqilliyini möhkəmləndirdi. Universal mahiyyət və tarixən formalaşmış dəyərlər sisteminin məcmusu dövlətçiliyin əsasını təşkil etməklə böyük perspektivlər üçün nəzərdə tutulmuşdu.

1994-cü il sentyabrın 20-də isə Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft müqavilələri imzalandı. Əsrin müqaviləsi məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində reallaşdı. "Əsrin müqaviləsi" adlandırılan bu Saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə etibarlı zəmin yaratdı, Azərbaycanın dünya xəritəsindəki mövqeyini möhkəmləndirdi. Bu gün artıq Azərbaycan dünya dövlətlərinin ən etibarlı tərəfdaşı imicini qazanmışdır.

Məqalədə göstərilmişdir ki, müstəqillik qazandıqdan sonra Azərbaycan xalqı öz müdrik rəhbərinin uzaqgörənliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində mühüm tarixi nailiyyətlər əldə etdi və ölkəmizin dünyaya inteqrasiyası təmin edildi. Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində iqtisadiyyat, sənaye və kənd təsərrüfatında, sosial, mədəniyyət, idman və təhsil sahəsində böyük uğurlar əldə edildi, çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edildi, yeni yaşayış massivləri salındı, yollar tikildi, ucqar rayonlara qaz xətləri çəkildi. Azərbaycan-Ermənistan münaqişəsi ilə əlaqəli Qərbi Azərbaycandan, həmçinin Qarabağdan didərgin düşmüş bir milyondan çox

* Azərbaycan Universitetinin dissertantı;
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Humanitar fənlər" kafedrasının müəllimi; Bakı, Azərbaycan
E-mail: narmin_aa@mail.ru
https://orcid.org/0000-0002-9790-0018

**Məqaləyə istinad:** Qasımova, N. [2023] Heydər Əliyev və milli dövlətçiliyin Azərbaycan modeli. *"Metafizika" jurnalı, 6*(1), səh.209-221.

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 21.01.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 28.02.2023*
*Çapa qəbul edilmişdir: 13.03.2023*

qaçqın insanlara müvəqqəti lazımi şərait yaradıldı. Ordu quruculuğunda yeni mərhələ başlandı.

Müəllif məqalədə Heydər Əliyevin təkmil dövlətçilik konsepsiyasında millilik, vətənpərvərlik, milli-mənəvi dəyərlərə önəm verilməsi prinsipləri hər zaman üstünlük təşkil edərək dövlətçilik tariximizdə əsas meyar kimi müəyyənləşməsindən bəhs etmişdir. Demokratik hüquqi dövlətin təməl prinsiplərindən biri kimi multimədəni cəmiyyətin bərqərar olması və bununla yanaşı milli kimliyə qayıdışı təmin etmək dövlətçilik siyasətimizin əsas atributlarındandır. Bu istiqamətdə aparılan uğurlu siyasətin nəticəsi olaraq maddi-mənəvi irsimizə sahib çıxmaq, qoruyub gələcək nəsillərə ötürmək milli ideologiyamızın əsas mahiyyətini təşkil edir. Milli məfkurəyə çevrilən azərbaycançılıq etnik mahiyyətdən daha çox siyasi və vətəndaşlıq anlamı kəsb edirdi. Bu da öz növbəsində dövlət-xalq vəhdətini təmin etdi. Xalq vahid ideologiya ətrafında birləşərək milli dövlətçiliyini bərpa etməklə, milli kimliyini, milli mövcudluğunu bir daha sübut etdi.

Məqalədə diqqət yetirilən mühüm məsələlərdən biri də ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyasının ötən dövrdə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilərək ölkəmizin davamlı inkişafının təmin edilməsində, qarşıya qoyulan əsas məqsəd və hədəflərə nail olmaq istiqamətində qazanılan nailiyyətlərdir.

Dövlətimizin hazırkı parlaq və möhtəşəm nailiyyətlərinin əsasını Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara və müasir qlobal çağırışlara uyğun həyata keçirilən uğurlu siyasət təşkil edir. Azərbaycan dünyada güclü, nüfuzlu dövlət, sabitlik adası və dinamik inkişafa malik olan ölkə kimi tanınır, qazanılan möhtəşəm nailiyyətlər ölkəmiz qarşısında yeni perspektivlər açır. Güclü beynəlxalq nüfuza, müsbət imicə sahib olan Azərbaycan dünyaya effektiv iqtisadi inkişaf modeli, özündə milli və ümumbəşəri dəyərləri ehtiva edən multikulturalizm modeli, həmçinin milli dövlətçiliyin Azərbaycan modeli kimi nümunələr təqdim etmişdir.

Prezident İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamına əsasən, Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev ili" elan edilmişdir.

**Açar sözlər:** Heydər Əliyev, müstəqillik, milli dövlət, ideologiya, azərbaycançılıq, milli inkişaf, siyasət, vətəndaş, cəmiyyət, demokratiya

## 1.Giriş

"Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir!"
Heydər Əliyev

Hər bir xalqın müstəqillik tarixində onun xilaskarına çevrilmiş dahi şəxsiyyətlər var. Həmin liderlər öz qətiyyətləri ilə mənsub olduqları xalqı

arxasınca aparmağı bacarırlar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də belə passionar şəxsiyyətlərdəndir. Müasir tarixə müstəqilliyin rəmzi olaraq düşmüş Heydər Əliyev dövlətçilik tariximizdə müstəsna xidmətləri ilə əbədilik qazanaraq mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi ilə hər bir azərbaycanlı üçün örnəkdir. Heydər Əliyevi yenidən hakimiyyətə qayıdışı ölkədəki prosseslərə köklü təsir etdi. Milli şüurun təkamülü Heydər Əliyevin hakimiyyətə gəlişi ilə sürətləndi, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter aldı. Uğurlu dövlət quruculuğu Azərbaycanın müstəqilliyini möhkəmləndirdi.

Tarixə adını Türk dünyasının böyük siması kimi yazdıran Heydər Əliyevin güclü dövlət konseptinə uyğun şəkildə Cənubi Qafqaz regionunun aktor dövlətinə çevrilən, əhalisinin sayı sabit şəkildə artaraq 10 milyonu ötən Azərbaycan bu gün sabitlik, təhlükəsizlik, əmin-amanlıq məkanıdır. Daim artan dayanıqlı iqtisadiyyatı, qüdrətli orduya, güclü sosial siyasətə, insan kapitalına yönəlmiş layihələrə malik olması ilə seçilən ölkəmiz möhtəşəm qlobal layihələri uğurla reallaşdıran, tolerant dəyərlərin daşıyıcısı, multikulturalizm nümunəsi olan, bütün əməkdaşlıq formatlarında etibarlı tərəfdaş kimi tanınan bir ölkə kimi dünya birliyində nüfuzlu mövqeyə sahibdir.

## 2.Heydər Əliyevin dövlətçilik fəlsəfəsi

Müasir və müstəqil Azərbaycan dövləti ümummilli lider Heydər Əliyevin siyasi dühasının məntiqi nəticəsidir. 3 oktyabr 1993-cü il tarixində ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra həyata keçirilən siyasət dövlətimizin müstəqilliyini təmin etdi. Müstəqillik qazandıqdan sonra Azərbaycan xalqı öz müdrik rəhbərinin uzaqgörənliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində mühüm tarixi nailiyyətlər əldə etdi, beynəlxalq təşkilatlarla əlaqələr yaradıldı və ölkəmizin dünyaya inteqrasiyası təmin edildi.

Ümummilli lider daxili və xarici qüvvələrin dövlət çevrilişi və təxribat cəhdlərinin qarşısını zamanında cəsarətlə dəf etdi. Heydər Əliyev demokratik hüquqi dövlət qurmaq, yeni islahatlar aparmaq üçün ilk növbədə ölkədə ictimai-siyasi sabitliyi, qanunun aliliyini bərqərar etdi, cəmiyyətdə hökm sürən hərc-mərcliyə, qanun pozuntularına və xaosa son qoydu. Azərbaycanda həyatın ritmi dəyişdi, ölkədə rifahın yüksəlişi, iqtisadi-mədəni-sosial inkişaf, tikinti-quruculuq işləri başlandı.

Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində iqtisadiyyatda, sənayedə və kənd təsərrüfatında, sosial, mədəniyyət, səhiyyə, idman və təhsil sahəsində böyük uğurlar əldə edildi, çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edildi, yeni yaşayış massivləri salındı, yollar tikildi, ucqar rayonlara qaz xətləri çəkildi. Əsrin müqaviləsi məhz Heydər

Əliyevin uzaqgörən siyasəti nəticəsində reallaşdı. 1994-cü il sentyabrın 20-də isə Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft müqavilələri imzalandı. *"Əsrin müqaviləsi"* adlandırılan bu Saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə etibarlı zəmin yaratdı, Azərbaycanın dünya xəritəsindəki mövqeyini möhkəmləndirdi. Bu gün artıq Azərbaycan dünya dövlətlərinin ən etibarlı tərəfdaşı imicini qazanmışdır.

Heydər Əliyev siyasi strategiyasının müasir inkişafın ideya əsası rolunda çıxış etməsi hər şeydən əvvəl onun universal mahiyyətindən irəli gəlirdi. Bu strategiya ölkəmizdə tarixən formalaşmış dəyərlər sisteminə söykəndiyindən böyük perspektivlər üçün nəzərdə tutulmuşdu.

Zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla reallaşdırdı. Heydər Əliyevin müəllifi olduğu 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında hüquqi dövlətin bütün prinsipləri- qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olundu, insan haqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edildi.

Ölkəmiz müstəqilliyini əldə etdikdən sonra hüquqi, sivil və demokratik cəmiyyət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat verəcək qərarlar qəbul etdi. Eyni zamanda, ölkəmizdə siyasi partiyaların, ictimai təşkilatların azad fəaliyyəti, senzuranın aradan qaldırılması, ölüm hökmünün ləğvi, fikir püleralizmi, yüzlərlə mətbuat orqanının sərbəst nəşr olunması, özəl radio və televiziya kanallarının yayımlanması azad fikrin, demokratiyanın və vətəndaş cəmiyyətinin inkişafına böyük təkan verdi.

İnsan haqlarının etibarlı qorunması dövlətin prioriteti kimi müəyyən edilərək respublikamız insan hüquq və azadlıqlarının təminatı sahəsində bütün əsas beynəlxalq konvensiyalara qoşuldu. Ölkəmizdə insan haqlarının müdafiəsinə dair mühüm normativ aktlar qəbul olundu, İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) institutu yaradıldı [7].

### 3.Heydər Əliyevin güclü dövlət konsepti

Azərbaycan Respublikasının davamlı inkişafının Heydər Əliyev konsepsiyası ideyanın praktik fəaliyyətə transformasiyası zəminində insanların davranışını stimullaşdıran dəyərlərin ifadəsidir. Həmin dəyərlər sistemi ümummilli ideyanın təmin edilməsi ilə yanaşı, hər bir fərdin şəxsi maraqlarını prinsip və vəzifələrini üzvi şəkildə əks etdirir. Məhz bu amil onun ictimai əsaslarını şərtləndirən səbəblərdəndir. Azərbaycanın davamlı inkişaf strategiyasının əsasını təşkil edən Heydər Əliyevin siyasi kursu milli maraqlara söykənmişdir. Heydər Əliyevin zəngin irsinə əsaslanan inkişaf strategiyasının üç fundamental başlanğıca istinad edirdi: güclü dövlət,

səmərəli iqtisadiyyat və azad insan. Hər üç elementin qarşılıqlı ahəngdar fəaliyyəti ölkənin yüksək inkişafına, hərtərəfli tərəqqisinə xidmət edən mühüm vasitəyə çevrilməkdədir [3].

Heydər Əliyev öz siyasi bacarığını, çoxillik idarəçilik səriştəsini əsirgəmədən xalqının firavanlığı və dövlətinin müstəqilliyi yolunda yorulmadan xidmətdə olduğunu bir daha sübut etdi. Türk dünyasının böyük oğlu Heydər Əlievin dövlətçilik siyasəti milli maraqlara xidmət edir. Hüquqi və milli dövlətin Azərbaycan modeli özünəməxsus xarakteristikası ilə yanaşı dünyavilik və demokratik prinsiplərin analoji təcəssümüdür.

Ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasının, mövcud dayanıqlı və davamlı iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli lider Heydər Əliyevin milli inkişaf strategiyasında düzgün müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır.

Təkmil siyasi sistemin, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin, siyasi mədəniyyətin əsasının qoyulması, davamlı siyasi-hüquqi islahatların həyata keçirilməsi, eyni zamanda, milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması bu kontekstdə xüsusilə vurğulanmalıdır[7].

## 4.Heydər Əliyev və milli-mənəvi dəyərlər

Müstəqil Azərbaycan dövlətinin illər ərzində keçdiyi yol sübut edir ki, əldə edilən tarixi uğurların əsasında ulu öndər Heydər Əliyevin uzaqgörən, düşünülmüş, əsrlərin perspektivlərinə hesablanmış milli dövlətçilik siyasətinin reallaşdırılması dayanmışdır. Fenomen şəxsiyyət olan Heydər Əliyev siyasi irsinin öyrənilməsi, təbliğ edilməsi və tətbiqi günümüzün strateji istiqamətləridir. Zaman və məkan ölçüsündə dahi Heydər Əliyev milli ideyaları Azərbaycan dövlətçiliyinin, milli birliyinin və milli dəyərlərinin həm siyasi-ictimai, həm də mədəni-mənəvi təməli kimi daim yolumuzu müəyyənləşdirəcəkdir.

Milli ruh, azərbaycançılıq ideyası çoxvmillətli dövlətimizin vahid milli ideologiyasına çevrildi. Heydər Əliyevin təkmil dövlətçilik konsepsiyasında millilik, vətənpərvərlik, milli-mənəvi dəyərlərə önəm verilməsi prinsipləri hər zaman üstünlük təşkil edərək dövlətçilik tariximində əsas meyar kimi müəyyənləşmişdir.

Azərbaycançılıq məfkurəsinin Heydər Əliyevin tarixi qayıdışının Azərbaycan gerçəkliyinə gətirdiyi ən dəyərli və gərəkli ideya olduğunu vurğulamaq əslində bir daha onun böyüklüyünü etiraf etməkdir. Azərbaycandakı dayanıqlı sabitlik, milli birlik və həmrəylik sözün həqiqi mənasında həm də Heydər Əliyevin azərbaycançılıq baxışlarına minnətdar olmalıdır[3].

Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi ümummilli lider Heydər Əliyevin xidmətidir. Totalitar sovet rejiminin hökm sürdüyü dönəmlərdə respublikanın ali qanununda xalqın mənəvi sərvətlərinin, xüsusi ilə dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsasların müəyyən edilməsi olduqca cəsarətli addım idi. Sovet milli siyasətinin tələblərinə zidd olan bu çətin vəzifənin öhdəsindən Heydər Əliyev layiqincə gələ bilmişdir.

Azərbaycançılıq milli ideologiyanın əsası kimi müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların üzvi surətdə birliyini təcəssüm etdirir. O, milli maraqları ifadə edən güclü dövlət hakimiyyətinə və yüksək milli intizama, formalaşan milli özünüdərkə əsaslanır, ən müxtəlif sosial təbəqələrdə anlaşma axtarır, millətin və dövlətin öz potensialından irəli gələn daimi islahatçılığı təbliğ edir. Bu gün azərbaycançılıq milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millət və etnik qrupların qardaşlığının, qarşılıqlı əlaqə və qarşılıqlı təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycanın bütövlüyü uğrunda birgə mübarizələrinin tarixi təcrübəsidir. Beləliklə, azərbaycançılıq ideologiyası etnik yox, siyasi və vətəndaşlıq xarakteri daşıyır, yalnız müstəqil Azərbaycanın vətəndaşlarına münasibətdə deyil, Azərbaycanın müstəqil dövlətçilik ideyasını üstün tutanlara münasibətdə də birləşdirici funksiyasını yerinə yetirir. Bir sözlə, azərbaycançılıq ideologiyası ilə multikulturalizm ideyası bir-birini tamamlayır [5].

Milli təfəkkürü milli dövlətdən ayrı təsəvvür etməyən, ümumbəşəriliyin milliliklə vəhdəti düşüncəsinə önəm verən Heydər Əliyevin ifadəsi ilə desək: *"Qloballaşma prosesinin verdiyi imkanlardan istifadə edərək, sahib olduğumuz milli dəyərləri qarşılıqlı münasibətlərdə başqa millətlərə aşılamaq bir millət olaraq bizim üçün vacib məsələdir"* [4].

Azərbaycan sərhədləri çərçivəsində yaşayan hər bir xalqın özünün milli dili olsa da, ortaq ünsiyyət dili olaraq Azərbaycan dilindən istifadə edilirdi. Bu da öz növbəsində müxtəlif mədəniyyətlər arasında səmimi münasibətlərin formalaşması üçün zəmin yaradırdı. Dilin qorunması birbaşa mədəniyyətlə əlaqəlidir Hər bir xalq və millət kimi bizim üçün də azərbaycan dili milli kimliyimizin təyinedici vasitəsi olmaqla xüsusi önəm daşıyır. Eyni zamanda azərbaycan dilinin inkişaf və zənginləşməsinə xidmət edən tədbirlər həyata keçirilir. Ana dilimiz bizim mıllı qürur mənbəyimizdir. Dil faktoru milli kimliyimizin özünütəsdiq elementi olmaqla mədəniyyətimizin yaşadılması deməkdir. Hər bir xalqın dili onun siyasi və mədəni kimliyinin fəlsəfi kateqoriyasıdır. Zamanında verilmiş bu qərar ana dilimizin mühafizəsinə, mililik və müasirlik prinsiplərinə uyğun şəkildə inkişafına və zənginləşməsinə xidmət edir. Dövlətin apardığı məqsədyönlü dil siyasəti

milli-mənəvi özünüdərk və azərbaycançılıq nəzəriyyəsinin konseptual əsaslarını təşkil edir milli kimlik fenomenlərinin sosial-fəlsəfi aspektdə təhlilində müstəsna rol oynayır. Bu siyasət bu gün də ölkə başçısı tərəfindən uğurla davam etdirilir.

Heydər Əliyev öz siyasi bacarığını, çoxillik idarəçilik səriştəsini əsirgəmədən xalqının firavanlığı və dövlətinin müstəqilliyi yolunda yorulmadan xidmətdə olduğunu bir daha sübut etdi. Türk dünyasının böyük oğlu Heydər Əlievin dövlətçilik siyasəti milli maraqlara xidmət edir. Hüquqi və milli dövlətin Azərbaycan modeli özünəməxsus xarakteristikası ilə yanaşı dünyavilik və demokratik prinsiplərin analoji təcəssümüdür.

Demokratik hüquqi dövlətin təməl prinsiplərindən biri kimi multimədəni cəmiyyətin bərqərar olması və bununla yanaşı milli kimliyə qayıdışı təmin etmək dövlətçilik siyasətimizin əsas atributlarındandır. Bu istiqamətdə aparılan uğurlu siyasətin nəticəsi olaraq maddi-mənəvi irsimizə sahib çıxmaq, qoruyub gələcək nəsillərə ötürmək milli ideologiyamızın əsas mahiyyətini təşkil edir.

Dahi öndərin rəhbərliyi ilə azərbaycançılıq məfkurəsi ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələrini birləşdirən aparıcı ideologiyaya çevrildi. düşünülmüş və Heydər Əliyev uzaqgörən siyasəti sayəsində Azərbaycan üçün, xalqımız üçün mümkünsüz görünən hər şeyin öhdəsindən uğurla gəldi, ölkəmizin müstəqilliyini dönməz, əbədi və daimi etdi. Müstəqil Azərbaycan demokratik hüquqi dövlət quruculuğu yolu ilə əzmlə irəlilədi və gələcək inkişafın strateji hədəflərini müəyyən etdi. Bu isə öz növbəsində müstəqil Azərbaycanın daha da qüdrətlənməsi və tərəqqisi üçün möhkəm təməl və potensial rolunu oynadı.

Ümummilli liderin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev Azərbaycana bacarıqla rəhbərlik edir, öz praqmatik və müdrik siyasəti ilə ölkəmizi irəli aparır. Dövlətin tərəqqisinin şahidi olan xalq öz Prezidentinə daim dəstək verir və Ali Baş Komandanın ətrafında yumruq kimi birləşmişdir.

**5.Müstəqillikdən müasirliyə: dayanıqlı inkişafın hədəfləri**

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyası ötən dövrdə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilərək ölkəmizin davamlı inkişafı təmin edilmiş, qarşıya qoyulan əsas məqsəd və hədəflərə nail olunmuşdur. Dayanıqlı və davamlı inkişaf Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən keyfiyyətcə yeni müstəvidə davam etdirilmiş islahatlarla bağlıdır. Məhz bu islahatlar hesabına Azərbaycanda bazar münasibətlərinə söykənən sosialyönümlü iqtisadiyyatın inkişafına nail olunmuş, ölkə əhalisinin həyat səviyyəsi yüksəldilmişdir.

Ümummilli liderin rəhbərliyi altında çoxvektorlu xarici siyasətin strategiyasının əsasları işlənib hazırlandı, ölkədə sülh və dialoq kimi başa düşülən azərbaycançılıq ideologiyası fəlsəfəsinin əsası qoyuldu. Azərbaycan Prezidenti İlham Əliyevin müdrik, bəsirətli, gələcəyi düşünən siyasəti nəticəsində həmin uğurlar bu günün tələblərinə uyğun olaraq daha da inkişaf etdirildi. Burada varislik, ardıcıllıq və yenilik, dövrümüzün yeni çağırışlarının nəzərə alınması dialektik surətdə birləşib. Bizim dövlət və cəmiyyət həyatının bütün sahələrində ciddi uğurlarımız vardır. Dünyanın bütün inkişaf reytinqlərində biz MDB ölkələri arasında liderik [6].

Bu gün iqtisadi sahədə rəqabətqabiliyyətliliyinə görə Azərbaycan Davos Dünya İqtisadi Forumunun, Dünya Bankının hesabatlarında yüksək pillələrdə qərarlaşır, islahatçı dövlət kimi seçilir. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu və Trans-Anadolu (TANAP) qaz boru kəməri kimi qlobal enerji və nəqliyyat layihələrinin bilavasitə təşəbbüskarı olan ölkəmiz Avropada etibarlı tərəfdaşa və regionun lider dövlətinə çevrilmişdir. Hazırki dövrdə ölkəmiz qlobal enerji təhlükəsizliyində aparıcı rol oynayır. Respublikamızın ən mötəbər tədbirlərə, o cümlədən humanitar, siyasi, iqtisadi, mədəni forumlara, möhtəşəm idman yarışlarına uğurla ev sahibliyi etməsi dövlətimizin dünyada yüksək nüfuzunu təcəssüm etdirir.

Azərbaycanın 44 günlük Vətən müharibəsi və işğal altında olan torpaqların azad edilməsi regional nəqliyyat dəhlizləri, o cümlədən Zəngəzur dəhlizi və bununla bağlı bir sıra digər təşəbbüslər üçün yeni imkanlar yaradıb, Şimal-Cənub dəhlizi kimi digər nəqliyyat layihələri Şərq-Qərb dəhlizinə sinerji əlavə edəcək. Azərbaycan hər iki dəhlizin iştirakçısıdır və Azərbaycanda bu dəhlizlərlə bağlı əksər nəqliyyat və logistika infrastrukturu hazırdır[1].

Azərbaycanın gündən-günə artan iqtisadi qüdrəti siyasi və hərbi gücə transformasiya etməkdədir. Hazırda zəngin və qüdrətli Azərbaycanın qəti şəkildə formalaşmasının və suverenliyinin mühüm şərtlərindən olan ərazi bütövlüyünün bərpa edilməsi üçün beynəlxalq siyasi nüfuz və hərbi güc amili özünü daha aydın şəkildə büruzə verməkdədir. Azərbaycanın iqtisadiyyatı regionun ən güclü iqtisadiyyatıdır. Azərbaycanın büdcəsi region dövlətlərinin üst-üstə büdcələrindən artıqdır. Heç zaman militarizmə meyilli olmayan Azərbaycan indi özünün müstəsna olaraq təhlükəsizliyini və ərazi bütövlüyünü təmin etmək üçün regionda ən güclü orduya sahibdir.

**6.Nəticə**

Ötən dövrdə dövlət başçısının təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatların tərkib hissəsi olaraq möhkəm bünövrə üzərində formalaşmış modern Azərbaycan dövləti özünün yeni hədəflərini təyin

etməklə dinamlk inkişaf dövrünü yaşayır. Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan dövləti indi güclü Azərbaycan dövləti kimi tanıtma nişanına sahib ola bilmişdir. Vaxtilə hər birimizin qürur mənbəyi olan müstəqil Azərbaycan indi bütün azərbaycanlıların iftixarına çevrilmiş güclü Azərbaycandır.

Heydər Əliyevin adını daşıyan Fond da xeyirxahlıq, sülh, insanpərvərlikvə tolerantlıq kimi bəşəri amallar uğrunda nəcib fəaliyyəti ilə ölkədə həyata keçirilən çoxşaxəli islahatlara dəyərli töhfələr verir, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan çoxsaylı layihələr, həyata keçirilən tədbirlər öz müsbət nəticələrini verməklə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əvəzsiz xidmətləri vardır. Azərbaycan mədəniyyətinin qorunması və inkişaf etdirilməsi istiqamətində görülən mühüm işlər sayəsində beynəlxalq təşkilatlarla əlaqələr gücləndirlmişdir. Mədəniyyətlərarası kommunikasiyaların yaradılması və interkulturalizmin inkişafı multimədəni cəmiyyətlərdə aparılan tənzimlənmə siyasətinin mühüm şərtlər Müstəqil Azərbaycan ulu öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Heydər Əliyevin dövlətçilik amallarına sadiq qalaraq ulu öndərin yüksək ideyalarını yaşatmaq və inkişaf etdirmək, Azərbaycan tarixinin yeni şanlı səhifələrini yazmaq naminə Alı Baş Komandan İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşərək, əlimizdən gələni əsirgəməməli, dövlət başçısının yüksək etimadına uyğun olaraq ölkəmizin hərtərəfli tərəqqisi üçün öz vətəndaşlıq borcumuzu yerinə yetirməliyik.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycanı böyük inkişaf yoluna çıxaran siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamına əsasən, Azərbaycan Respublikasında 2023-cü ilin *“Heydər Əliyev ili”* elan edilmişdir. Prezident İlham Əliyevin 28 noyabr tarixli sərəncamı ilə isə 2023-cü ilin *“Heydər Əliyev ili”* elan edilməsi ilə bağlı *“Tədbirlər Planı”* təsdiq edilmişdir. Tədbirlər planına əsasən, təhsil müəssisələrində *“Heydər Əliyev dərsləri”* keçiriləcək, Azərbaycanın üzv olduğu beynəlxalq təşkilatlarda silsilə tədbirlər təşkil ediləcək. Aərbaycanlı olması ilə fəxr edən Heydər Əliyevin əziz xatirəsi xalqımız qəlbində daim yaşayacaqdır.

## ƏDƏBİYYAT

**1.** *Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*, 29 sentyabr, 2022. Bakı.
http://prezident.az.>articles>view

**2.** Əliyev, İ. (2022). ADA Universitetində "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda çıxış. 25 noyabr, Bakı. http://prezident.az.>articles>view
**3.** Əhmədov, Ə. (2009). *Heydər Əliyev və müasir Azərbaycan*. Azərbaycan, 14 iyul. s.4
**4.** Xəlilov, S. (2007). *Mənəviyyat fəlsəfəsi*. Bakı, s.391
**5.** Qurbanlı, M. (2019). *Azərbaycanşılıqideologiyası etnik yox, siyasi və vətəndaşlıq xarakteri daşıyır*. Üç nöqtə, 11 may, s.8-9.
**6.** Məmmədzadə, İ. (2020). Fenomenal iradə sahibi. *Xalq qəzeti*, 12 iyun. № 111. s.4
**7.** Məmmədov, F. *Ulu Öndər Heydər Əliyevin irsi milli sərvətimizdir*. http:// justice.gov.az> articles

## Гейдар Алиев и азербайджанская модель национальной государственности

**Нармина Гасымова**[*]

**Абстракт.** Статья посвящена политической деятельности Великого Предводителя в процессе строения национальной государственности. В современной истории богатое и многогранное наследие Гейдара Алиева как атрибут суверенности занимает основное место и является примером для каждого азербайджанца. С приходом к власти Гейдара Алиева продвижение национального мышления развилось, а суверенность благодаря ему приобрела вечный и необратимый характер. Концепт успешной и сильной государственности усилил суверенитет Азербайджана. Обобщение универсальной сути исторически сформированной системы ценностей была предназначена для больших перспектив.

20 сентября 1994-го года были подписаны нефтяные договоры оказавшие переворотом в новейшей истории Азербайджана. Контракт века была реализован благодаря дальневидной политике Гейдара Алиева. Эта сделка, названная «Контрактом века» создала прочную основу для будущего развития и безопасности страны, укрепило положение Азербайджана на мировой карте. На нынешнем этапе Азербайджан заслужил имидж самого доверенного сторонника мировых государств.

[*] Диссертант Университета Азербайджан,
Старший преподаватель кафедры «Гуманитарных наук» Азербайджанского Государственного Университета Нефти и Промышленности; Баку, Азербайджан
E-mail: narmin_aa@mail.ru
https://orcid.org/0000-0002-9790-0018
**Цитировать статью:** Гасымова, Н. [2023]. Гейдар Алиев и азербайджанская модель национальной государственности. *Журнал «Metafizika», 6*(1), с.209-221.

***История статьи:***
*Статья поступила в редакцию: 21.01.2023*
*Отправлена на доработку: 28.02.2023*
*Принята для печати: 13.03.2023*

В статье указывается, что после достижения суверенитета азербайджанский народ благодаря дальневидности, решимости, стальной воле, богатой государственной практике мудрого руководителя, приобрел исторические достижения и обеспечилось интегрирование страны в мировую арену. В результате напряженной деятельности Гейдара Алиева были достигнуты большие успехи в экономике, промышленности и сельском хозяйстве, социальной, культурной, спортивной и образовательной сфере, построены многочисленные промышленные предприятия, новые жилые массивы, были учреждены объекты культуры и образования, медицинские учреждения, проложены дороги, газовые линии в отдаленные районы. В период азербайджано-армянского конфликта были созданы временные необходимые условия для более чем миллиона беженцев из Западного Азербайджана, а также Карабаха. Начался новый этап в построении армии.

В статье автор сообщил о принципах отношения к национально-духовным ценностям, о национализме, патриотизме, входивших в государственную концепцию Гейдара Алиева, определяющих главные критерии в истории государственности. Основным принципом демократического правового государства является формирование мультикультурального общества, а также возвращение к национальной идентичности. В результате успешной политики, проводимой в этом направлении, овладевание материально-нравственного наследия, его сохранение и передача будущим поколениям составило главную суть нашей национальной идеологии. Азербайджанство, превратившееся в национальную идеологию, имело скорее политический и гражданский смысл, чем этнический характер. Это в свою очередь, обеспечило единство государства и нации. Объединившись вокруг единой идеологии народ вновь доказал свою национальную идентичность, национальное существование и повторно подтвердил национальную государственность.

Одной из важных вопросов статьи является раскрытие стратегии всестороннего развития, основанного в прошлом веке общенациональным лидером Гейдаром Алиевым, которая далее была успешно продолжена главой государства, господином Ильхамом Алиевым. В результате чего были достижены дальнейшие успехи в развитии страны и решены основные цели и задачи.

Основой нынешних ярких и блестящих достижений нашего государства является успешная политика Президента Ильхама Алиева, в которой отражены национальные интересы и современные глобальные вызовы. Азербайджан известен в мире как сильное государство, остров стабильности и страна с динамичным развитием, достигнутые грандиозные достижения открывают перед нашей страной новые перспективы. Азербайджан, обладающий сильным международным авторитетом, положительным имиджем, представил миру такие примеры, как модель эффективного экономического развития, модель мультикультурализма, содержащие в себе национальные и общегосударственные ценности, а также азербайджанскую модель национальной государственности.

Согласно распоряжению от 29 сентября 2022 года Президента Ильхама Алиева 2023-й год в Азербайджанской Республике объявлен «годом Гейдара Алиева».

**Ключевые слова**: Гейдар Алиев, независимость, национальное государство, идеология, азербайджанство, национальное развитие, политика, гражданин, общество, демократия.

## Heydar Aliyev and the Azerbaijani model of national statehood

**Narmina Gasimova***

**Abstract.** The article is dedicated to the political activity of the Great Leader in the process of national state building. Heydar Aliyev, who holds an important place in our modern history as a symbol of our independence, is an example for every Azerbaijani with his rich and diverse heritage. The evolution of national consciousness accelerated with Heydar Aliyev's coming to power, and thanks to him, our independence became eternal and irreversible. The concept of successful and strong state building strengthened the independence of Azerbaijan. Universal essence and the totality of the historically formed system of values, forming the basis of statehood, were intended for great prospects.

On September 20, 1994, oil contracts were signed, which was a turning point in the latest history of Azerbaijan. The contract of the century was realized precisely as a result of Heydar Aliyev's visionary policy. This Agreement, called the "Contract of the Century", created a reliable foundation for the future development and security of our country, and strengthened Azerbaijan's position on the world map. Today, Azerbaijan has gained the image of the most reliable partner of the world states.

It is shown in the article that after gaining independence, the people of Azerbaijan achieved important historical achievements thanks to the foresight, determination, iron will, and rich statecraft experience of their wise leader, and the integration of our country into the world was ensured. As a result of the intense activity of Heydar Aliyev, great successes were achieved in the economy, industry and agriculture, social, cultural, sports and educational fields, numerous industrial enterprises, cultural and educational institutions, medical institutions were built, new housing estates were built, roads were built, gas was supplied to remote regions. lines were drawn. More than one million refugees displaced from Western Azerbaijan and Karabakh due to the Azerbaijan-Armenia conflict were temporarily provided with the necessary conditions. A new stage in the construction of the army has begun.

In the article, the author talked about Heydar Aliyev's concept of advanced statehood, where the principles of nationalism, patriotism, giving importance to national-moral values prevailed and were determined as the main criteria in the history of our statehood. Establishing a multicultural society as one of the fundamental principles of a democratic legal state and, at the same time, ensuring the return to national identity is one of the main attributes of our state policy. As a result of the successful policy conducted in this direction,

* Dissertation student of Azerbaijan University,
Senior Lecturer, Department of Humanities, Azerbaijan State University of Oil and Industry; Baku, Azerbaijan
E-mail: narmin_aa@mail.ru
https://orcid.org/0000-0002-9790-0018

**To cite this article:** Gasimova, N. [2023]. Heydar Aliyev and the Azerbaijani model of national statehood. *"Metafizika" journal, 6*(1), pp.209-221.

***Article history:***
*Received: 21.01.2023*
*Accepted: 13.03.2023*

taking possession of our material and moral heritage, preserving it and passing it on to future generations is the main essence of our national ideology. Azerbaijanism, which became a national ideology, had more political and civic meaning than ethnic essence. This, in turn, ensured the unity of the state and the people. The people united around a single ideology and restored their national statehood, once again proving their national identity and existence.

One of the important issues highlighted in the article is the comprehensive development strategy defined by the national leader Heydar Aliyev, which was successfully implemented in the last period under the leadership of the head of state, Mr. Ilham Aliyev, and the achievements in ensuring the sustainable development of our country and achieving the main goals and objectives.

The basis of the current brilliant and magnificent achievements of our state is the successful policy implemented under the leadership of President Ilham Aliyev in accordance with national interests and modern global challenges. Azerbaijan is known in the world as a strong, influential state, an island of stability and a country with dynamic development, the great achievements made open new perspectives for our country. Having a strong international reputation and a positive image, Azerbaijan presented the world with examples of an effective economic development model, a model of multiculturalism that includes national and universal values, and the Azerbaijani model of national statehood.

According to the decree of President Ilham Aliyev dated September 29, 2022, 2023 was declared the "Year of Heydar Aliyev" in the Republic of Azerbaijan.

**Keywords:** Heydar Aliyev, independence, national state, ideology, Azerbaijaniism, national development, politics, citizen, society, democracy

## REFERENCES

1. *Decree of the President of the Republic of Azerbaijan on declaring 2023 the “Year of Heydar Aliyev” in the Republic of Azerbaijan*, September 29, 2022. Baku.
   http://prezident.az.>articles>view
2. Aliyev, I. (2022). Speech at the international conference “Along the Middle Corridor: geopolitics, security and economy” at ADA University. November 25, Baku.
   http://prezident.az.>articles>view
3. Ahmadov, A. (2009). *Heydar Aliyev and modern Azerbaijan.* Azerbaijan, July 14. p. 4
4. Khalilov, S. (2007). *Philosophy of spirituality*. Baku, p. 391
5. Gurbanli, M. (2019). *Azerbaijani ideology is not ethnic, but political and civic in nature.* Uch noqte, May 11, pp. 8-9.
6. Mammadzadeh, I. (2020). *Phenomenal willpower.* Khalq newspaper, June 12. No. 111. p. 4
7. Mammadov, F. *The legacy of Great Leader Heydar Aliyev is our national wealth*. http://justice.gov.az> articles